# “Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası ilə Dövlətlərarası Aviasiya Komitəsi arasında aviasiya hadisələrinin araşdırılması və qarşısının alınması sahəsində qarşılıqlı fəaliyyət haqqında” Sazişin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası ilə Dövlətlərarası Aviasiya Komitəsi arasında aviasiya hadisələrinin araşdırılması və qarşısının alınması sahəsində qarşılıqlı fəaliyyət haqqında” 2017-ci il mayın 10-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 oktyabr 2017-ci il
№ 781-VQ

**Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası ilə Dövlətlərarası Aviasiya Komitəsi arasında aviasiya hadisələrinin araşdırılması və qarşısının alınması sahəsində qarşılıqlı fəaliyyət haqqında**

# SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası ilə Dövlətlərarası Aviasiya Komitəsi (DAK),

Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) aviasiya hadisələri və insidentlərinin araşdırılması və qarşısının alınması sahəsindəki də daxil olmaqla, standartlarım və tövsiyə olunan təcrübəsini (Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya 13-cü Əlavə) rəhbər tutaraq;

aviasiya hadisələrinin araşdırılması üzrə səlahiyyətli orqanın müstəqilliyi prinsipinin həyata keçirilməsinin zəruriliyini, belə imkan olmadıqda müvafiq səlahiyyətlərin aviasiya hadisələri və insidentlərinin araşdırılması üzrə regional təşkilata ötürülməsini nəzərdə tutan 2016-cı ilin 11 iyul tarixində qüvvəyə minmiş 13-cü Əlavəyə 15-ci düzəlişin məzmununu rəhbər tutaraq;

1991-ci il 30 dekabr tarixli "Mülki aviasiya və hava məkanından istifadə haqqında Saziş"i (bundan sonra - Saziş) rəhbər tutaraq;

DAK-ın belə bir təşkilatın nümunəsi kimi göstərildiyi ICAO-nun "Aviasiya hadisələri və insidentlərinin araşdırılması üzrə regional təşkilat barədə təlimat"ının (Doc 9946) müddəalarımı nəzərə alaraq;

DAK-ın ICAO tərəfindən beynəlxalq hökumətlərarası təşkilat kimi qeydiyyata alındığını nəzərə alaraq;

Sazişə uyğun olaraq, aviasiya hadisələrinin araşdırılmasının (araşdırmada iştirakın) birgə həyata keçirilmə və tənzimləmə sahəsi olduğunu diqqətə alaraq;

DAK-ın aviasiya hadisələri üzrə müstəqil araşdırmaları ICAO-nun standartları və tövsiyə olunan təcrübəsinə və Sazişə uyğun həyata keçirdiyini və ixtisaslı və hazırlıqlı personala, zəruri laboratoriya bazasına, müvafiq struktur bölmələrə malik olduğunu nəzərə alaraq;

aviasiya hadisələrinin araşdırılması zamanı qarşılıqlı fəaliyyətin ətraflı təsvir olunmasının zəruriliyindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Azərbaycan Respublikasında qeydiyyata alınmış hava gəmilərinin, Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda istismar edilən icarəyə götürülmüş hava gəmilərinin, yaxud Azərbaycan Respublikasının ərazisində digər dövlətlərə məxsus hava gəmilərinin məruz qaldığı aviasiya hadisələrinin araşdırılması zamanı birgə fəaliyyət çərçivəsində Tərəflər Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya 13-cü Əlavə ilə müəyyən olunmuş standartlara və tövsiyə olunan təcrübəyə riayət edəcəklər.

## Maddə 2

DAK öz üzərinə aşağıdakı öhdəlikləri götürür:

2.1. aviasiya hadisələrinin araşdırılması (araşdırmada iştirak) məqsədi ilə Azərbaycan Respublikası tərəfindən səlahiyyət verilmiş beynəlxalq hökumətlərarası təşkilat kimi, özünün telefon, faksimil, elektron və digər əlaqə məlumatlarını ICAO- ya təqdim etmək;

2.2. bu Sazişin 1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının mütəxəssisləri ilə birlikdə DAK mütəxəssislərinin qüvvələri ilə aviasiya hadisələrinin araşdırılmasını (araşdırmada iştirakı) təmin etmək;

2.3. bu Sazişin 1-ci maddəsinə uyğun olaraq, aviasiya hadisələrinin araşdırılması zamanı zəruri olan Azərbaycan Respublikasının təqdim etdiyi özüyazan bort qurğuları və digər obyektiv informasiya vasitələrinin məlumatlarının oxunmasını və təhlilini təmin etmək;

2.4. Azərbaycan Respublikasının mütəxəssisləri ilə birlikdə yekun hesabatın tövsiyələrlə birlikdə dərcini, həmçinin yekun hesabatın maraqlı dövlətlərə və ICAO-ya göndərilməsini həyata keçirmək;

2.5. aviasiya hadisələrinin araşdırılmasının gedişi və nəticələrinə dair hesabatı, onların qarşısının alınması ilə bağlı tövsiyələri, həmçinin uçuşların təhlükəsizliyinə təsir göstərən digər məlumatları Azərbaycan Respublikasına təqdim etmək;

2.6. DAK-ın araşdırmada iştirak edən mütəxəssislərinin siyahısını Azərbaycan Tərəfi ilə razılaşdırmaq.

**Maddə 3**

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası öz üzərinə aşağıdakı öhdəlikləri götürür:

3.1. aviasiya hadisəsi baş verdikdə DAK-a, maraqlı dövlətlərə və ICAO-ya bu Sazişin 1-ci maddəsinə uyğun olaraq, vaxtında məlumat vermək;

3.2. bu Sazişin 1-ci maddəsinə uyğun olaraq, aviasiya hadisələrinin araşdırılmasında yardım göstərmək;

3.3. zərurət yarandıqda, araşdırmada iştirak etmək üçün mütəxəssisləri DAK-ın araşdırma komissiyasının sərəncamına göndərmək;

3.4. Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda aviasiya hadisələrinin araşdırılmasına yardım məqsədi ilə Azərbaycan Respublikasının nazirlik, idarə və yerli hakimiyyət orqanları ilə qarşılıqlı fəaliyyət göstərmək üçün zəruri tədbirlər görmək;

3.5. Azərbaycan Respublikasının hüquq mühafizə orqanları, yerli hakimiyyət orqanları ilə birlikdə maddi sübutları qoruyub saxlamaq, hava gəmisinin, onun fraqmentlərinin və Azərbaycan Respublikasının ərazisində aviasiya hadisəsi yerinin mühafizəsini təmin etmək;

3.6.aviasiya hadisələrinin araşdırılmasında iştirak edən Azərbaycan Respublikası mütəxəssislərini əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələləri ilə bağlı təlimatlandırmaq, onları sığorta polisləri, zəruri geyim, bioloji və digər təhlükə növlərindən zəruri müdafiə və rabitə vasitələri ilə təmin etmək;

3.7.ICAO standartlarına uyğun olaraq, informasiya hesabatlarının göndərilməsini həyata keçirmək.

**Maddə 4**

Tərəflər aviasiya hadisələrinin araşdırılması haqqında ilkin, aralıq, son hesabatların və onların layihələrinin hazırlanmasını və göndərilməsini hər bir konkret hal üzrə razılaşdıraraq həyata keçirirlər.

**Maddə 5**

Sıradan çıxmış texnikanın zəruri hallarda kənar təşkilatların qüvvələri hesabına araşdırılması hər bir konkret hal üzrə Tərəflərin razılığı ilə müqavilə əsasında həyata keçirilir.

**Maddə 6**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 11-ci maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protolkollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 8**

Bu Sazişin müddəaları Azərbaycan Respublikasının öz ərazisi üzərindəki hava məkanı üzərində suverenliyinə, həmçinin onun aviasiya fəaliyyəti sahəsində suveren hüquqlarına toxunmur.

**Maddə 9**

Bu Sazişin müddəaları Azərbaycan Respublikasının digər təşkilatlarla bu sahədə əməkdaşlığına maneçilik törətmir.

**Maddə 10**

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır. Tərəflərdən hər biri bu Sazişdən çıxmaq niyyəti barədə yazılı bildirişi nəzərdə tutulan çıxma tarixindən ən azı altı ay əvvəl digər Tərəfə göndənnəklə və bu Saziş qüvvədə olduğu müddətdə meydana gəlmiş öhdəliklərini yerinə yetinnəklə bu Sazişdə iştirakını dayandıra bilər.

**Maddə 11**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan Tərəfinin yazılı bildirişinin Dövlətlərarası Aviasiya Komitəsi tərəfindən diplomatik kanallar vasitəsilə alındığı tarixdən etibarən qüvvəyə minir.

**Maddə 12**

Bakı şəhərində 2017-ci il 10 may tarixində, Azərbaycan və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası adından** | **Dövlətlərarası Aviasiya Komitəsi adından** |
| *(imza)* | *(imza)* |